Azərbaycan Boks Federasiyasının veb saytı üzrə görülən işlər haqqında hesabat

Layihə: Azərbaycan Boks Federasiyasının yeni veb saytı
Hesabat dövrü: 2025–2026

1. Dizayn mərhələsindən əvvəl görülən işlər

Layihənin ilkin mərhələsində yeni veb saytın hazırlanması üçün zəruri baza formalaşdırılmışdır.

- Mövcud vəziyyət və layihənin əsas ehtiyacları təhlil edilmişdir
- Dünya üzrə boks federasiyalarının veb saytlarının fəaliyyəti araşdırılmışdır.
- Yeni saytın konsepsiyası və ümumi yanaşması müəyyən edilmişdir.
- Saytın strukturu hazırlanmış, əsas bölmələr və alt bölmələr müəyyən edilmişdir.
- Əsas funksional tələblər müəyyən edilmişdir: axtarış, filtrlər, yarış təqvimi, komandalar, idmançılar, klublar, media, təhsil və digər bölmələr üzrə tələb olunan funksiyalar formalaşdırılmışdır.
- Saytda təqdim olunacaq məlumatların hansı bölmələr üzrə yerləşdirilməsi planlaşdırılmışdır.
- Saytın kontentlə doldurulması üçün tələb olunan məlumatların siyahısı hazırlanmışdır.

2. Dizayn prosesi çərçivəsində görülən işlər

Bu mərhələdə saytın tam vizual və funksional həlli hazırlanmışdır.

- Saytın **desktop və mobil versiyaları üçün tam UX/UI dizaynı** hazırlanmışdır.
- Ana səhifə və bütün əsas daxili səhifələrin dizaynı yaradılmışdır.
- Saytın naviqasiya sistemi, header, footer və menyu strukturu hazırlanmışdır.
- Xəbərlər, yarışlar, komandalar, idmançılar, klublar, media, təhsil və digər bölmələrin səhifələri dizayn edilmişdir.
- Axtarış və filtrasiya funksiyalarının interfeysi hazırlanmışdır.
- Formalar və istifadəçi tərəfindən məlumat daxil edilən sahələr dizayn edilmişdir.
- Yarış təqvimi və tədbirlərlə bağlı funksional hissələrin dizaynı hazırlanmışdır.
- Sayt üzrə kartlar, düymələr, inputlar, menyular, modal elementlər və digər interfeys komponentləri hazırlanmışdır.
- Elementlərin müxtəlif vəziyyətləri — default, hover, focus, disabled, error və digər halları müəyyən edilmişdir.
- Saytda istifadə olunan komponentlər sistemləşdirilmiş və **UI Kit** hazırlanmışdır.
- Şriftlər, rənglər, ölçülər, boşluqlar və digər vizual prinsiplər vahid sistem üzrə formalaşdırılmışdır.
- Dizayn prosesində kontentin yerləşdirilməsi və real məlumatların səhifələrə uyğunlaşdırılması üzrə iş aparılmışdır.
- Layihənin development mərhələsinə düzgün ötürülməsi üçün dizayn faylları və zəruri materiallar hazırlanmışdır.

3. Dizayndan sonra və development mərhələsində görülən işlər

Dizayn tamamlandıqdan sonra layihənin texniki icrası və yekun nəticənin keyfiyyətinə nəzarət prosesi həyata keçirilmişdir.

- Layihə development komandasına təqdim edilmiş və dizayn həlləri üzrə zəruri izahlar verilmişdir.
- Developerlər üçün tapşırıqlar və dəqiqləşdirmələr formalaşdırılmışdır.
- Development prosesi ərzində developerlərlə davamlı kommunikasiya aparılmışdır.
- Yaranan texniki və dizayn məsələləri müzakirə edilmiş və uyğun həllər müəyyən edilmişdir.
- Hazırlanan səhifələr mütəmadi olaraq təsdiqlənmiş dizaynlarla müqayisə edilmişdir.
- Desktop və mobil versiyaların düzgün hazırlanması yoxlanılmışdır.
- Dizayn, ölçülər, boşluqlar, şriftlər, rənglər, komponentlər və kontentin yerləşdirilməsi üzrə uyğunsuzluqlar müəyyən edilmişdir.
- Aşkar olunan problemlər və uyğunsuzluqlar üzrə developerlər üçün düzəliş siyahıları hazırlanmışdır.
- Verilmiş düzəlişlərin icra vəziyyəti izlənilmiş və nəticələr təkrar yoxlanılmışdır.
- Saytın kontentlə doldurulması prosesində məlumatların düzgün yerləşdirilməsinə nəzarət edilmişdir.
- Layihənin yekun versiyasının həm dizayn, həm funksionallıq, həm də kontent baxımından uyğunluğu yoxlanılmışdır və roblemlər və uyğunsuzluqlar üzrə developerlər üçün yekun düzəliş siyahıları hazırlanmışdır.

Yekun

Azərbaycan Boks Federasiyasının yeni veb sayt layihəsi **ilkin konsepsiyanın və strukturun hazırlanmasından başlayaraq dizaynın yaradılması, kontentin toplanması və strukturlaşdırılması, development prosesinin koordinasiyası, hazır saytın yoxlanılması və düzəlişlərin idarə edilməsinə qədər bütün əsas mərhələlər üzrə müşayiət və idarə edilmişdir.**